**UOT 341**

# MÜASİR DÖVRÜN İNKİŞAF MEYİLLƏRİNDƏ MƏCBURİ KÖÇKÜNLƏR VƏ QAÇQINLAR PROBLEMİNİN HƏLLİ MƏSƏLƏSİ

**Sevda İBRAHİMOVA***

***Açar sözlər:*** *miqrasiya, məcburi köçkün, qaçqın, qaçqın statusu, konvensiya*

## Giriş

Bəşər tarixi mürəkkəb tarixi proseslərin nəticəsində formalaşmışdır. Hər bir hadisə insanların taleyində bu və ya digər şəkildə təzahür etmişdir. Belə hadisələrdən biri də geniş insan kütləsinin müxtəlif səbəblər üzündən öz daimi yaşayış məskənlərini məcburi şəkildə tərk etməsi olan qaçqınlıq problemidir.

Qaçqın problem II dünya müharibəsi, müxtəlif etnik və siyasi münaqişələrlə yadda qalan XX əsrdə daha çox olmuşdur. Problemin həll olunmaması XXI əsrə humanitar və demokratik ideallarla gələcəyini qurmağa çalışan dünya cəmiyyətinin də sağalmaz yarasına çevrilmişdir.

Hələ 1951-ci ildə Birləşmiş Millətlər Təşkilatı qaçqınların hüquqi statusunun müəyyənləşdirilməsi haqqında Cenevrə Konvensiyasını və onun xüsusi protokolunu qəbul etməklə irqi, dini, siyasi, sosial, seksual və vətəndaşlıq hüquqlarının pozulmasına görə ölkəsini tərk etmiş insanların faciəsini "qaçqınlıq statusu" ilə hüquqi müstəviyə qaldıra bildi. Bu status, eyni zamanda ölkə daxilində müəyyən məcburi yerdəyişməyə məruz qalmış vətəndaşlara da şamil olunurdu.

Bu gün insanların sosial və siyasi problemlərini həll etməyə çalışan beynəlxalq təşkilatlar məsələnin kökünü araşdırmaqla qaçqın məsələsinin həllində səmərəli addımlar atmağa çalışır. Bununla belə, dünya ölkələrinin siyasi situasiyasını, hadisələrin təbii axarını dəyişməyə qadir amillərdən biri kimi çıxış edən məcburi köçkün məsələsi hələ də öz həll yollarını gözləyir.

Məcburi köçkün problemləri II Qarabağ müharibəsinə qədər ərazilərinin işğalı nəticəsində erməni təcavüzünə məruz qalmış bir milyondan çox məcburi köçkün problemini yaşayan Azərbaycan Respublikasının da dövlət səviyyəli məsələlərindən biri idi. Qaçqın dalğasının ilk günlərindən respublikada məcburi köçkünlərlə iş üzrə müvafiq qurumlar yaradılmışdı. Hələ 1989-cu ildə "Daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş şəxslərlə iş üzrə Azərbaycan SSRİ dövlət Komitəsi" təşkil olundu ki, 1992-ci ildə "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" qəbul edilmiş qanuna uyğun olaraq, komitənin adı "Qaçqınların və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi" ilə əvəzləndi (1). Otuz ilə yaxın bir müddətdə komitə bir milyona yaxın qaçqın və məcburi köçkünün sosial problemlərini həll etməyə çalışmışdır. 2020-ci ilin son aylarındakı uğurlu hərbi əməliyyatlar otuz il ərzində həlli görünməyən qaçqın məsələsinə yaxşı mənada həlledici təsir göstərdi.

Məlumdur ki, dünya ölkələri problemin həllini bir tərəfdən humanitar məramlarla həll etməyə çalışır. Bununla belə qaçqınlıq və məcburi miqrasiya öz sosial və siyasi, eyni zamanda mədəni problemləri ilə günümüzün həm də siyasi məsələsinə çevrilmişdir. Qaçqınların üz tutduğu zəngin ölkələr, xüsusən də Qərbi Avropa ölkələri hal-hazırda miqrasiya böhranı yaşamaqla həlli çətin görünən daxili siyasi və mədəni dezinteqrasiya ilə üzləşdiyini etiraf etməkdən çəkinmir.

## 1. Qaçqın statusu və beynəlxalq konvensiyaların əhəmiyyəti

2001-ci ildən 20 iyun tarixi hər il Beynəlxalq Qaçqınlar Günü kimi qəbul edilmişdir. Hal-hazırda milyonlarla insan qaçqın və məcburi köçkün vəziyyətində yaşamaqda davam edir.

Tarixə nəzər salsaq görərik ki, qaçqınlığın tarixi daha erkən dövrlərə təsadüf edilir. Müharibələr, təqiblər, fəlakətlər və epidemiyalar insanları bir ölkədən digər ölkəyə sürükləyib aparmağa məcbur etmişdir (yəhudilərin Misiri tərk etməsi, ərəblərin Pireney yarımadasını tərk etməsi və s.). Bu

* *AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: sevda2303@mail.ru*

baxımdan, sadə insanlar həmişə təqib olunan tərəfə yardım etməyə, əl tutmağa çalışmışlar. Adətən məscid, kilsə kimi dini məkanlar təqiblərdən yaxa qurtarmağa çalışan dinc əhalinin sığınacaq məkanı olmuşdur. Bu dövrlərdə qaçqınlar heç bir hüquqi statusa malik olmamışlar və demək olar ki, birbaşa qayğıdan məhrum idilər.

XX əsrdə bəşər tarixinin ən faciəvi hadisələri olan dünya müharibələri milyonların acı taleyinə çevrilir. Təqiblər, dağıntılar, qətllər, işgəncələr, aclıq, səfalət insanları məcburi yerdəyişməyə vadar edir. Bu baxımdan, beynəlxalq hüquqda qaçqın anlayışı da elə Birinci Dünya müharibəsindən sonra 1922-ci ildə Millətlər Cəmiyyətinin sənədlərinə əks olunmuşdur.

XX əsrin 30-cu illərindən isə nasist Almaniyasının antisemit siyasəti Avropanın digər ölkələrini və ABŞ-ı ölkəni tərk edən yüzminlərlə yəhudi qaçqınlarının axınına məruz qoyur. 6 milyon yəhudinin ölüm düşərgələrində məhv olmasından sonra İkinci Dünya müharibəsinin bitməsinin ardınca Qaçqınlarla iş üzrə Beynəlxalq Təşkilat yaradılır. Bu təşkilat 7 milyondan çox məcburi köçkünün və 2 milyona yaxın yəhudi qaçqının yerləşməsinə yardım göstərə bilir (2).

Bu gün qaçqın hüquqları bir neçə beynəlxalq sənədə əsasən tənzimlənir və beynəlxalq təşkilatların qaçqınlar üçün yardımları səngimir. Bu sırada Beynəlxalq Qırmızı Xaç Komitəsi və Qızıl Aypara cəmiyyətinin səylərini göstərmək olar. Hər il BMT öz büdcəsinin bir hissəsini məhz məcburi köçkünlərin sosial problemlərinə ayırmaqda davam edir.

Beləliklə, XX əsr öz qanlı-qadalı hadisələrilə bəşər tarixində təkcə milyonlarla insanın məhvinə deyil, bir o qədər də sadə insanların taleyində ağır yükə çevrilmiş qaçqınlıq taleyi yaşamasına səbəb oldu. Lakin dağıdıcı dünya müharibələri imperialist nəfsləri daha böyük faciələrə imza atmaqdan çəkindirmədi. Belə ki, əsrin ikinci yarısından etibarən dünya ölkələri siyasi qarşıdurmanın yeni mərhələsinə, uzun illər ərzində həlli görünməyən regional münaqişələrə gətirib çıxartdı. Belə münaqişələrdən biri də başlanğıcı 40-cı illərin sonlarına təsadüf edilən Ərəb-İsrail müharibələri idi. Bu münaqişə nəticəsində 5 milyona yaxın fələstinli öz yurdunu tərk etməli olmuşdur (3). Maraqlıdır ki, onların əksəriyyəti istiqamətini münaqişəyə düzgün yanaşma təbliğ etməyən Avropa və ABŞ-a üz tuturdu. Bu baxımdan, 1951-ci ildə BMT tərəfindən Qaçqınlarla iş üzrə Ali Komissarlığın yaranması da ilk növbədə bu cür miqrantların hüquqlarının müəyyənləşdirilməsi məqsədini güdürdü. Elə həmin ərəfədə məcburi köçkünlər üçün fundamental sənəd hesab edilən Cenevrə Konvensiyası qəbul edilmişdir (4). Konvensiyanın ən maraqlı tərəflərindən biri o idi ki, sənəd ilk növbədə onu qəbul etmiş ölkələrin üzərinə qaçqın hüquqlarına dair öhdəliklər müəyyənləşdirirdi. Bu öhdəliklərdən biri də hər bir ölkənin məcburi miqrasiyaya açıq olması tələbi idi.

Bu gün dünyada bir sıra ölkələr qaçqın dalğasına daha çox məruz qaldığından xüsusi "humanitar statusa" malikdirlər, məsələn, müvəqqəti olaraq sığınacaq verməklə qaçqınların digər ölkələrə keçməsinə imkan yaradırlar. Adətən, belə ölkələr bu cür kütləni qəbul etmək şəraitinə və qaçqınlara dair konvensiyanın tələblərinə cavab verə bilmirlər, buna görə də humanitar koridor rolunu oynamaqla funksiyalarını bitirmiş hesab edirlər. Qeyd etmək lazımımdır ki, ağır cinayət məsuliyyətinə cəlb olunmuş şəxslər, həmçinin terroristlər qaçqın statusuna malik olmurlar. Belə hallarda ölkəsini tərk etmiş şəxs tərk etdiyi dövlətin sərəncamına qaytarılır. Həyati risklər aradan qalxdıqdan sonra qaçqınlar öz ölkəsinə qaytarılırlar.

Bu gün dünyada qaçqınların problemlərini mərkəzləşmiş şəkildə həll etməyə çalışan II Dünya müharibəsindən sonra BMT-nin yaratdığı Qaçqınlar üzrə Ali Komissarlığıdır (QÜAK). Komissarlığın idarəsi demək olar ki, dünya ölkələrinin əksəriyyətində nümayəndəlikləri olan Cenevrədə yerləşir. BMT üzrə QÜAK qaçqınlar üçün humanitar yardımın təşkil olunması, müdafiəsi və daimi yaşayış yerlərinin axtarılması istiqamətində işlər görür. Qaçqınların statusuna dair Cenevrə Konvensiyanın imzalanmasından sonra isə QÜAK-in fəaliyyət miqyası daha da genişlənir. Maraqlıdır ki, məhz bu sənədlərin və Konvensiyanın qəbul edilməsindən sonra qaçqınların Avropaya axını daha da güclənir. Məsələn, 50-ci illərdə Macarıstanda, Honkonqda, Əlcəzairdə, Mərakeş və Tunisdə baş verən hadisələrdən sonra qaçqınların hüquqi və humanitar müdafiəsi məsələsinin qlobal səviyyədə həll olunması öz növbəsində məcburi köçkünlərin Avropaya axınına istiqamət verir.

XX əsrin 60-cı illərdə müstəmləkə rejiminin dağılması prosesi nəticəsində komissiya büdcəsinin böyük bir hissəsi artıq Afrika köçkünlərinin yerləşdirilməsinə sərf edilmişdir. Bununla belə artıq humanitar yardımın miqdarı və miqyası Avropada miqrantların problemlərini həll etmək gücündə deyildi, belə ki, Qərbin inkişaf etmiş ölkələri köçkünlər üçün sığınacaqdan başqa bir şey deyildi. Ona görə də elə XX əsrin ikinci yarısından etibarən qəbul etdiyi əhalinin siyasi hüquqlarını Avropa müstəvisində həll etməkdən çəkinən inkişaf etmiş ölkələr miqrant böhranı ilə üz-üzə qalmışdı (5).

Beləliklə, 70-ci illərdən başlayaraq QÜAK artıq qaçqınların qəbul edilməsində müəyyən məhdud qərarlarla çıxış etməyə başladı. Problem dünyada bir daha baş verən siyasi oyunların sıravi insanların həyatına göstərdiyi ağır sosial, iqtisadi və siyasi fəsadlar idi. Soyuq müharibə, Ərəb-İsrail münaqişəsi, Vyetnam, millətlərarası münaqişələr və sair hadisələr bu illərdə yerdəyişməyə məcbur olan insan kütləsinin birdən-birə artırmasına səbəb olmuşdu.

Sovet İttifaqının, habelə Avropada kommunist rejimlərinin süqutu nəticəsində əsrin sonlarına doğru məcburi köçkünlərin sayı daha da artdı. Digər bir tərəfdən, 90-cı illərdə Yaxın Şərqdə "antiterror" adı altında aparılan müharibə nəticəsində də 2 milyona yaxın kürd İraqı tərk etməli olmuşdur. Tərk edənlərin əksəriyyəti yenə də üzünü zəngin Avropa ölkələrinə tutmuşdu. Kütləvi qaçqın dalğasının yaratdığı problemlər həll olunmalı idi. Belə həll yollarından biri də 1995-ci illərdə keçmiş Yuqoslaviyanın dağılması nəticəsində baş verən humanitar böhran səbəbindən Avropa ölkələrini müharibə bölgələrində məcburi humanitar keçidlərin və bu keçidlərə hərbi nəzarətin yaradılması idi (2). Bununla da məcburi miqrasiyanın qarşısı qismən də olsa alına bilinmişdi.

Beləliklə, XX əsrin sonlarına doğru Avropa və ABŞ üçün ən ağır problemlərdən biri qaçqınlıqla bağlı məcburi miqrasiya məsələlərinin qalmaqda davam etməsi idi. Avropa ictimaiyyəti və siyasi dairələri artıq məcburi miqrasiya böhranından danışmaqdan çəkinmirdilər. Problem Suriyada və Liviyada baş verən vətəndaş müharibəsinin dərinləşməsi ilə daha da kəskinləşdi. Çox qısa müddətdə Avropa Yaxın Şərq ölkələrindən milyonlarla qaçqına sığınacaq vermək haqqında düşünməli oldu. Belə ki, bu, İkinci Dünya müharibəsindən sonra Avropaya axın edən insan dalğasının ən geniş həcmi idi. 2015-ci ilin yanvar ayından sentyabra qədər Avropa Birliyi ölkələrinə özünə sığınacaq tapmaq məqsədilə gələn 700 min qaçqın hesaba alınmışdır (6). İl ərzində Avropaya iki milyona qədər qaçqın və qeyri-leqal miqrant gəlmişdir.

Rəqəmlər böhranın miqyasını öz-özlüyündə deyə bilir. Məsələn, ekspertlər bildirirlər ki, bu illər ərzində 6 milyonluq Suriya əhalisinin 4 milyonu məcburi köçkünə çevrilmişdir. Eyni zamanda, 2016-cı ildə Sudanda baş verən hadisələr bir milyona qədər qaçqının yaranmasına səbəb olmuşdur (7). Bu baxımdan, 2015-ci ildən Yaxın Şərqdə baş verən hadisələr fonunda kütləvi qaçqın axınına hazır olmayan Avropa Birliyində miqrasiya siyasəti kəskin şəkildə dəyişməyə başladı.

Məcburi miqrasiya böyük insan faciəsinin ifadəsidir. Miqrantlar bu çətin və dözülməz yola uşaqların, qocaların, qadınların, ümumiyyətlə dinc insanların həyatı bahasına çıxırlar (8). Son zamanlar tətbiq olunan sərt qanunlar və qaydalar da miqrantların dözülməz qaçqınlıq həyatına səbəb olmuşdur. Avropaya axın edənlərin əksəriyyəti müvəqqəti sığınacaqlarda günlərini keçirməklə işsiz, maddi vəsaitsiz, çox zaman isə məhdud qida ilə daha dözülməz həyatla üzləşirlər. Bu qaçqınların əksəriyyəti Avropa cəmiyyətinə inteqrasiya olmaqda və həyatlarını yenidən qurmaqda çətinlik çəkirlər.

Beləliklə, XXI əsrin ilk onilliyində Afrikada və Yaxın Şərqdə baş verən gözlənilməz fatal hadisələr Avropada miqrasiya böhranının başlıca səbəbidir.

## 2. Avropa ölkələrinin qaçqın problemi ilə mübarizə yolları

Bu gün dünyada bu və ya digər səbəbdən öz yurdunu tərk etməyə məcbur qalmış 65 milyon qaçqının və məcburi köçkünün olması ehtimal edilir. Onların böyük əksəriyyəti Avropaya üz tutmuşdur. Miqrasiya böhranı ilə üzləşən Qərb ölkələri özünəməxsus miqrasiya təcrübələrindən istifadə etməklə problemin həllinə çalışırlar.

Qaçqınlara və məcburi köçkünlərə müvəqqəti sığınacağın verilməsi istiqamətində son zamanlar xeyli işlər görülmüşdür. Əksər ölkələr onları qəbul etsələr də, şəraitə uyğun olaraq yaranan prob-

lemlər üzündən müxtəlif məhdudiyyətlər qoymağa məcbur qalırlar. Avropa ölkələrinin əksəriyyəti köçkünlərin qəbulu və yerləşdirilməsi ilə bağlı say, sosial, əmək və ərazi yerləşməsini nəzərdə tutan xüsusi kvotalar tətbiq etməkdədirlər. Kvotalar həm əmək miqrasiyasının tənzimlənməsinə, həm də müvəqqəti yaşayışın daimiləşməsi məqsədlərini nəzərdə tutur. Son onilliklərdə daxili əmək bazarının və sosial proqramların effektivliyinin qorunmasını hədəf almış Avstriya, İtaliya, Portuqaliya, İsveçrə, İspaniya (9) kimi bir sıra ölkələr kvotalardan səmərəli şəkildə istifadə etməyi bacarırlar.

Kvotalaşma Avropa ölkələrinə Avropa İttifaqına daxil olmayan dövlətlərdən gələn axının qarşısını almağa xidmət edir. ABŞ daha sərt miqrasiya qanunları ilə seçilir (10). İtaliya və İspaniya kimi ölkələr isə Avropanı əmək miqrasiyası ilə təmin etməklə bərabər özləri də kənardan gələn əmək miqrasiyasından istifadə edirlər. Bu baxımdan həmin ölkələr qaçqın dalğasının qarşısını qismən almaq üçün bir sıra Afrika və Latın Amerikası ölkələri ilə miqrasiya məsələlərini əhatə edən sazişləri bağlayırlar.

Britaniyada isə vəziyyət tamamilə fərqlənir. Krallığa və Britaniya Birliyinə daxil olan ölkə vətəndaşları üçün Britaniya açıq olsa da, 60-cı illərdən etibarən, səviyyə prinsipinə əsaslanan kvotalar tərtib etməyə başlamışdı. Belə ki, Britaniyanın qapıları Birlik ölkələri vətəndaşlarına yalnız səriştəli işçilərin tələb olunan sahələrdə işləmək üçün açıq hesab olunurdu. Məsələn, 1965-ci ildə Britaniya ölkəyə xüsusi qiymətləndirmədən keçməklə yalnız 8500 nəfər kvota müəyyənləşdirmişdir (11). Bu baxımdan Böyük Britaniyada miqrantlar yüksək səriştəli mütəxəssislər, tələbatda olan işçilər, az səriştəli, lakin tələbatda konkret iş yerləri müəyyənləşdirilmiş olan əmək miqrantları, tələbələr və daha bacarıqlı mobil gəncləri əhatə etməklə beş kateqoriyaya bölünür. Burada da dil bacarıqları, yaşayışı təmin etmək üçün vəsaitin olması, təhsil səviyyəsi, təklif olunan potensial əmək haqqı ayrıca nəzərdə tutulur.

Əhalisi demək olar ki, bütünlükdə qaçqın, məcburi köçkün və əmək miqrantlarından formalaşan ABŞ isə xarici miqrantlara qarşı sərt siyasəti ilə son illərdə daha çox diqqət mərkəzindədir. Bu gün ABŞ ölkəyə insan axının qarşısını almaq üçün daha çox səy göstərir. Məşhur “Green Card” (daimi yaşayış üçün kart) ABŞ-a köçmək istəyən şəxslərin ailə və qohumluq əlaqələrinə, məşğulluq ehtimalına xüsusi diqqət yetirməkdədir. ABŞ hökuməti bir sıra tələbləri nəzərə alaraq bu kartları lotereya satışına çıxarmışdır. Hər il 50 mindən çox kart dünya əhalisinin bəxtinə çıxarılır, 90 min kart isə sponsor tapan qaçqın və köçkünlərə paylanılır. Ümumi say etibarilə qanunsuz miqrantlarla sərt davranan ABŞ hökuməti ərazisində yaşayış üçün hər il 200 mindən bir qədər artıq miqrant qəbul edir.

Ümumiyyətlə, qaçqın böhranın müxtəlif səbəbləri var. Bunların arasında iqtisadi, siyasi və demoqrafik sabitsizliyi ayrıca qeyd etmək lazımdır. XXI əsrin əvvəllərində siyasi səbəblər, xüsusən də vətəndaş müharibələri insanların həyatını dözülməz iqtisadi duruma gətirib çıxarmışdır. Suriyada, İraqda, Liviyada daxili siyasi böhran təkcə müharibə təhlükəsi deyil, həm də yerli əhalinin sosial vəziyyətini kəskin şəkildə aşağı salmışdır. İnsanlar aclıq və səfalətdən məcburi köçkün vəziyyətinə düşmüşlər. Suriyada baş verən hadisələr, münaqişənin həll perspektivsizliyi qaçqın dalğasının geri qayıtma ehtimalını getdikcə azaltmaqdadır. Avropa ölkələri bu qaçqın dalğasının qarşısını almaq üçün Türkiyə, Livan və İordaniyada miqrantların müvəqqəti dayanacaqlarını maliyyələşdirməkdədir. Məsələn, 2016-cı ildə Avropa İttifaqı Türkiyədə qaçqınlar üçün sığınacaq yaradılmasına maliyyə dəstəyinin göstərilməsinə dair yekdil qərar qəbul etmişdir. Bununla belə, maliyyə vəsaitlərinin yetərli olmaması qaçqınlar üçün təhsil, elementar sanitar şəraiti, demək olar ki, təmin etmir. Onlardan həmin ölkələrdə işçi qüvvəsi kimi də istifadə olunmur. Digər tərəfdən, sivil ölkələrin Yaxın Şərqdə terrorizmlə mübarizəsi əsaslı nəticə vermir. Əksinə, terror ocaqları bir-birini əvəzləməkdə və yeni əraziləri əhatə etməkdədir. Başqa bir tərəfdən isə müvəqqəti sığınacaq qismində qaçqınları qəbul edən müsəlman ölkələrinin özü bəzən terror və vətəndaş müharibəsinin ocağına çevrilir (məsələn, Liviya). Bu da öz növbəsində qaçqın dalğasının daha da artmasına səbəb olur.

Yaxın Şərq ölkələrindən çıxmış qaçqınların əksəriyyəti əsasən qohumlarının və yaxınlarının yaşadığı Qərbi Avropa ölkələrinə axın edirlər. Bu baxımdan, Avropanın özü sürətlə İtaliya və qaçqın kütləsini qəbul etmək imkanlarına malik olmayan Makedoniya, Yunanıstan kimi ölkələrin tim-

salında qeyri-leqal miqrantların sığınacağına çevrilir ki, sonuncular da öz növbəsində axının istiqamətini qəbirə tərəf yönəldirlər. Məsələn, Makedoniya hökuməti 2015-ci ildə bu cür miqrantlara Qərbi Avropa ölkələrinə qeydiyyatsız çıxış verən 3 günlük vizalar paylamağa icazə vermişdir (12).

Ekspertlər düşünürlər ki, artıq 2019-cu ildə miqrasiya böhranını getdikcə enmək üzrədir, belə ki, 2015-ci ilə nəzərən Avropada yaşamaq üçün təqdim olunan ərizələrin sayı 3 dəfəyədək azalmışdır (13). Bu isə 2014-cü ilin statistikasına çox yaxınlaşırdı. Bununla belə, 2020-ci ilin əvvəllərində Suriyanın İdlib ərazisində baş verən hadisələrdən sonra 4 milyona yaxın qaçqını himayə altına almış Türkiyə qəti şəkildə üzərinə qoyulan öhdəlikdən imtina etdiyini bildirməklə Qərbə tərəf olan sərhədlərini açaraq və qaçqınların ölkəni tərk etməsinə şərait yaradaraq 100 minlərlə köçkünün Avropaya axınına və bu ölkələrdə sosial vəziyyətin gərginləşməsinə şərait yaratmışdır (14). Türkiyə prezidenti Ərdoğanın belə bir addımını Qərbi Avropa ölkələrində düşünülmüş addım hesab edənlər az olmamışdı. Bir qisim ekspert isə bu qədər böyük qaçqın kütləsinə sığınacaq verən Türkiyənin daha ağır vəziyyətə düşməsindən ehtiyatlanaraq, vəziyyəti başa düşülən hesab etmişdi.

Hal-hazırda Avropa İttifaqı qaçqın kütləsinin qarşılaması istiqamətində daha çox Şengen və Dublin razılaşmalarına əsaslanır. Bu sənədlərə əsasən, Avropa qitəyə aid olan 22 ölkə tərəfindən daxili sərhəd mühafizəsindən imtina etmişdir. Bu cür yanaşma ölkəyə gələn hər bir xarici vətəndaşın İttifaqın istənilən dövlətinin sərhədlərini keçməsinə imkan verir. Razılaşmaya əsasən, hər bir ölkə sığınacaq verərkən vəziyyəti gərginləşdirməməli və müəyyən prosedurları həyata keçirməklə hüquqi məsuliyyət daşımalıdır. Tələblərə görə, ikinci ölkəyə keçirərkən sığınacaq verən ölkə proseduraları düzgün təmin etməsə, qaçqın deportasiya təhlükəsi ilə üzləşə bilər. Bu baxımdan, Qərbi Avropanın hədəf ölkələri ilə müqayisədə Afrika və Asiyaya yaxın olan İtaliya, Yunanıstan, Macarıstan kimi ölkələri daha böyük hüquqi məsuliyyət daşıyırlar. Ona görə də, doğru olaraq, ekspertlər bu qaydaların Avropa ölkələrinin İttifaq müqavilələrinə ciddi təhlükə olduğunu söyləyirlər.

Nəzarətsiz qaçqın yerdəyişməsi həm də çoxsaylı insan təlafatına gətirib çıxarır. BMT-nin məlumatlarına görə, 2015-ci ildə Aralıq dənizini keçməyə cəhd edən 2400 insan həlak olmuşdur. Bu illər ərzində Suriya və digər bölgələrdən axın etmiş qaçqınların bir çoxu da Avropaya istiqamətlənmiş təhlükəsiz dəniz yollarından özbaşına keçməklə həyatlarına qəsd etməkdən belə çəkinməmişlər. Həmin yollarda minlərlə qaçqın, uşaq, qoca, qadın məhv olmuşdur. Bu səbəbdən Türkiyə hökuməti Egey dənizindən qaçqınların keçməsini qadağan etməli olmuşdur (15). Son zamanlar Suriyada aparılan antiterror əməliyyatları ölkənin sabitliyinə qismən də olsa kömək göstərmişdir, nəticədə qaçqın axının qarşısı azalmağa başlamışdır. Vəziyyətin təhlükəli xarakter almasını sərhəd zastavalarının yerləşdiyi bölgələrdə baş verən qətl hadisələri də deyir. Həmin ildə Bolqarıstanda Əfqanıstan qaçqını sərhədçilər tərəfindən öldürülmüşdür (16). Bütün bunlar isə qaçqınların qəbulu və paylanması istiqamətində aparılan işlərin ədalət prinsipinə zidd məqamlarını özündə əks etdirir ki, bu da öz növbəsində yeni münaqişələrə gətirib çıxarır.

Beləliklə, 2016-cı ildən etibarən Şengen zonasının 8 ölkəsi daxili sərhədlərini yenidən nəzarətə almağa başlamışdır. Ekspertlər düşünürlər ki, Böyük Britaniyanın Avropa İttifaqından çıxması məsələsində qaçqın problemi az rol oynamamışdır.

Beləliklə, Avropa qaçqın problemini həll etmək üçün müxtəlif yollar axtarmaqda davam edir. 2015-ci ildə qaçqın dalğasının pik həddində Avropa İttifaqı ilə Türkiyə arasında bu ölkənin ərazisində qaçqınlara müvəqqəti sığınacağın verilməsinə dair müqavilə fəaliyyətə başlamışdır. Elə həmin il Yunanıstanda yerləşən qaçqınlar Türkiyəyə deportasiya edilir və bu məqsədlə Türkiyəyə 3 milyard avro vəsait ayrılır. Lakin qaçqın dalğasının artan tempi məcburi köçkünlərin ölkədəki sosial problemləri daha da gərginləşdirdiyindən Türkiyə hökuməti qaçqın düşərgələrinin saxlanılmasına ayrılan maliyyə dəstəyinin artırılmasını tələb edir (17). Avropa ölkələri isə situasiyanın Türkiyə hökumətinin əlində təzyiq alətinə çevrilməsinə imkan verməmək üçün Afrika ölkələrində də qaçqınlar üçün belə sığınacaqların salınmasına çalışır. Ekspertlərin hesablamalarına görə, bu cür sığınacaqların saxlanılmasına Avropa ölkələrinin 20 milyard avro sərf edəcəkləri gözlənilir.

Bu baxımdan qaçqın dalğası ilə bağlı yaşanan problemlər Qərbi Avropa dövlətlərinin iqtisadiyyatına və onun sosial-mədəni inkişaf meyillərinə təsirsiz ötüşməmişdir. Politoloqlar bildirirlər ki,

qaçqın böhranı Avropanın mütəşəkkilliyini pozmaqda davam edir. Qaçqınlar problemi daha çox Avropanın Almaniya, Fransa, İngiltərə, İsveç, Danimarka və b. kimi zəngin inkişaf etmiş sütun dövlətlərində daha çox özünü göstərir. Bu ölkələrin böhranı isə dünyanın siyasi mənzərəsinə mənfi təsir göstərə bilər.

Bununla belə, bu gün dünyada Avropanın qaçqınlarla bağlı siyasəti birmənalı qarşılanmır. Məsələn, əksəriyyət Avropanın tez-tez istifadə etdiyi "qaçqın böhranı" anlayışını tənqid edərək rəqəmlərin şişirdildiyini iddia edir və Avropanın daha çox miqrant qəbul etmək potensialının olduğunu bildirir. Milyardlarını qaçqın sığınacaqlarına və humanitar yardımlara sərf edən Avropa cəmiyyəti üçün məcburi köçkünlərin qəbul edilməsində maliyyə çətinlikləri bəhanə kimi görünə bilər.

**Nəticə**

Beləliklə, nəticəyə gəlmək olar ki, müasir Avropa qaçqınların qəbul edilməsində elə də həvəsli deyil. Belə ki, Avropanın insan hüquqları və azadlıqları prinsipi əsasında məcburi köçkünlərə təklif etdiyi hüquqi status onun öz siyasi dayaqlarına mənfi təsir göstərir, Avropa qaçqın böhranı ilə üz-üzə dayanır.

Məcburi miqrasiya problemlərinin həllində Cenevrə Konvensiyası, BMT-nin Qaçqınlar Üzrə Ali Komissiya, qeyri-hökumət təşkilatları hüquqi tərəflərini həll etməyə çalışsalar da, faktiki ağırlıq Avropanın aparıcı ölkələrinin üzərinə düşür. 60 il əvvəl olduğu kimi, qaçqınların böyük bir kütləsi sabit və gözəl həyat axtarışı ilə Avropaya axın edir.

Müasir qaçqın problemi Avropanın təməl prinsiplərini pozmaqdadır. Qərbi Avropa ölkələri məsələnin həllində müxtəlif layihələrlə çıxış edir, külli miqdarda vəsait xərcləyirlər. Lakin vəziyyətin gərgin olaraq qalması və beynəlxalq münaqişələrin davamlılığı qaçqın və məcburi köçkün məsələnin həlli perspektivlərini daha da azaldır. Ekspertlər, doğru olaraq, problemin həllini hüquqi aspektdən deyil, məcburi miqrasiyanın mənbəyi olan işsizlik, sosial ədalətsizlik, müharibələr, münaqişələr, siyasi, milli və mədəni dözümsüzlük kimi baza məsələlərinin həllində görürlər.

## ƏDƏBİYYAT

1. Qaçqınların və Məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsi.
http://idp.gov.az/az/content/1/parent/1

2. Как складывалась судьба беженцев в истории. Справка.
https://ria.ru/20070620/67506881.html

3. Palestine refugees. https://www.unrwa.org/?id=86

4. The Refugee Convention, 1951 https://www.unhcr.org/4ca34be29.pdf

5. Lester Eve.(2011) Part Five Welfare, Article 24 // The 1951 Convention Relating to the Status of Refugees and its 1967 Protocol. — 2011-01-27.

6. Европа переживает крупнейший миграционный кризис со времен II мировой войны
http://archiwum.radiopolsha.pl/6/137/Artykul/217350

7. Беженцы https://www.un.org/ru/sections/issues-depth/refugees/index. html

8. Европа в окружении беженцев. https://www.svoboda.org/a/26990628.html

9.Синельщикова И.Г. Иммиграция и иммиграционная политика в Испании: пути решения проблемы. http://www.ilaran.ru/?n=500

10. http://www.immigralaw.com/english/immigrationquotas.html

11. Анализ подходов к проблеме оценки потребностей в трудящихся-мигрантах и планирование миграции рабочей силы: Российская Федерация и международный опыт / Субрегиональное бюро МОТ для стран Восточной Европы и Центральной Азии, Международное бюро труда. – Москва: МБТ, 2009.

12. Беженцы в Македонии: покинуть страну за 72 часа
Беженцы в Македонии: покинуть страну за 72 часаю «Deutcht Welle» (21.08.2015).

https://www.dw.com/ru/%D0%B1%D0%B5%D0%B6%D0%B5%D0%BD%D1%86%D1%8B%D0%B2%D0%BC%D0%B0%D0%BA%D0%B5%D0%B4%D0%BE%D0%BD%D0%B8%D0%B8%D0%BF%D0%BE%D0%BA%D0%B8%D0%BD%D1%83%D1%82%D1%8C%D1%81%D1%82%D1%80%D0%B0%D0%BD%D1%83%D0%B7%D0%B0-72-%D1%87%D0%B0%D1%81%D0%B0/a-18663554

13. Миграционный кризис в Европе пошел на спад
Число вновь прибывающих в ЕС беженцев упало до уровня 2014 года
https://www.kommersant.ru/doc/3914762 23:28, 1 марта 2020

14. В Европе заявили об угрозе нацбезопасности из-за мигрантов
https://lenta.ru/news/2020/03/01/ugroza

15. Эрдоган закрыл беженцам морской путь в Европу
https://lenta.ru/news/2020/03/07/stop/

16. Afgan refugee shot by polict while trying to enter Bulgaria| The Ceardian
https://www.theguardian.com/world/2015/oct/16/afghan-refugee-shot-dead-police-turkey-enter-bulgaria

17. *BBC Русская служба.//* Турция не готова к вступлению в силу договора с ЕС по беженцам. BBC Русская служба.
https://www.bbc.com/russian/international/2016/04/160402_eu_tirkey_deal_looms

## *РЕЗЮМЕ*

***Севда Ибрагимова***

### ***Проблема решения проблемы ВПЛ и беженцев в тенденциях развития современности***

***Ключевые слова:*** *миграция, вынужденные переселенцы, беженцы, статус беженца, конвенция*

Сегодня современная Европа не очень заинтересована в приеме беженцев. Правовой статус, который Европа предлагает ВПЛ на основе принципа прав и свобод человека, отрицательно сказывается на ее политической поддержке. Европа столкнулась с кризисом беженцев.

Женевские конвенции, Управление Верховного комиссара ООН по делам беженцев и неправительственные организации пытаются решить правовые аспекты проблемы вынужденной миграции, реальное бремя ложится на ведущие европейские страны. Сегодня большое количество беженцев стекается в Европу в поисках стабильной и спокойной жизни.

Современная проблема беженцев нарушает основные принципы Европы. Страны Западной Европы реализуют различные проекты и тратят большие средства на решение проблемы. Однако напряженная ситуация и непрекращающиеся международные конфликты еще больше сужают перспективы решения проблемы беженцев и внутренних перемещенных лиц.

***SUMMARY***

***Sevda İbrahimova***

***The issue of solving the problem of IDPs and refugees in the development trends of modern times***

**Keywords:** *migration, forced migration, refugee, refugee's status, convention*

Today, modern Europe is not so keen on accepting refugees. Thus, the legal status that Europe offers to IDPs on the basis of the principle of human rights and freedoms has a negative impact on its political support. Europe is facing a refugee crisis.

Geneva Convention, the UN High Commissioner for Refugees and non-governmental organizations are trying to solve the legal aspects of the problem of forced migration, the actual burden falls on the leading European countries. Large number of refugees are flocking to Europe in search of a stable and beautiful life.

The modern refugee problem violates the basic principles of Europe. Western European countries are implementing various projects and spending large sums of money to solve the problem. However, the tense situation and the persistence of international conflicts further reduce the prospects for resolving the issue of refugees and internally displaced persons.